

# Cavid ocağı

*Bəşər sivilizasiyasının ilkin yaşayış məskənlərindən olan qədim Naxçıvan torpağı ziyarətgahları, pirləri, ocaqları ilə daim diqqət mərkəzində olub. Tariximizə həmişə qayğı, sayğı ilə yanaşmaqla yanaşı, yenilərinin də yaradılması ənənəsi formalaşıb bu diyarda. Görkəmli şəxsiyyətlər yetirən bu torpaq onların unudulmaması üçün çalışır və yaşadıqları evlərin ziyarətgaha çevrilməsini təşkil edir.*

Belə ocaqlardan biri də – Cavid ocağıdır. Qədim Naxçıvanın axarlı-baxarlı bir guşəsində yerləşən və ona daha da yaraşıq verən, başucalığı gətirən, bu məhəllənin kiçikdən böyüyə hər bir kəsinin iftixar, qürur duyduğu bu ocaq 25 ildən artıqdır ki, istər yerli camaatın, istərsə də qonaqların diqqətini çəkir. Daim qonaqlı-qaralıdır bu ocaq. Öz istisi, hərarəti, Cavid sehri, Cavid əfəndiliyi ilə qarşılanır burada insanlar.

Ecazkar Cavid ucalığı elə bu ocağa ayaq basdığın andan səni ovsunlayır və öz ağuşuna alır.

Bu ocağın yaradılmasında və bugünkü fəaliyyətinin təminatında bu torpağın digər bir dahi, nurlu oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidməti vardır. Onun dahi şairin irsinə verdiyi yüksək dəyərin təcəssümü olan bu muzey 1981-ci ildə yaradılmışdır. O gündən bu günə ev-muzey Cavid əfəndinin zəngin ədəbi irsini tədqiq və təbliğ edir.

Muzey ekspozisiyasında bədii və elmi tərtibat işləri aparılmış, 1984-cü ilin iyun ayının 9-da rəsmi açılışı olmuşdur. 2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun qayğısı ilə muzeydə yenidən əsaslı təmir və bərpa işləri aparılmış, muzey əvvəlki görkəminə qaytarılmışdır. Muzey ekspozisiyası yenidən qurulmuşdur. Muzeyin maddi texniki bazası zənginləşdirilmişdir.

Fəaliyyətə başladığı bu müddət ərzində muzey fondunda 7 minə yaxın eksponat toplanmışdır. Onların içərisində H.Cavidin həyat və yaradıcılığını əks etdirən foto-şəkillər «Keçmiş günlər», «Peyğəmbər», «İblis», «Uçurum», «Topal Teymur», «Şeyx Sənan», «Şeyda», «Səyavuş» əsərlərinin ilk nəşrləri, üzərində müəllifin avtoqrafı olan 1926-cı ildə nəşr olunmuş «İblis» və «Səyavuş» əsərləri, böyük şairin yubileyləri, onun müxtəlif teatrlarda tamaşaya qoyulmuş əsərlərinin afişa və proqramları, müxtəlif xatirə əşyaları və s. vardır. Bu eksponatlar içərisində ədibin yaxın dostu Əziz Şərifin muzeyimizə şəxsən üzünü köçürüb bağışladığı Cavidin İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi məktubdan ibarət dəftəri, şairin qızı Turan Cavid tərəfindən hədiyyə edilmiş «Knyaz» əsərinin əlyazmasını və ailə şəkillərinin orijinalını xüsusi qeyd etmək olar.

Muzey fondunun zənginləşdirilməsində şairin qızı Turan Cavidin etdikləri ancaq dediklərimizlə bitmir. Turan Cavid bir övlad kimi bu işə həmişə yardımçı olmuşdur. Naxçıvanda ev-muzeyi yaradılmamışdan çox-çox qabaq Turan xanımın bu işə sarsılmaz inamı olmuşdur. Turan Cavid inanıb ki, Cavid gec-tez öz qiymətini alacaq. Turan xanım buna inanıb, inamında da yanılmayıb. O bilib ki, haçansa xalqının Heydər Əliyev kimi qədirbilən bir oğlu Cavidin itirilmiş haqlarını özünə qaytaracaq.

Naxçıvanda ev-muzeyinin ekspozisiyasının quruculuq işlərində Turan Cavid yaxından iştirak etmiş, Cavidin Naxçıvan həyatı ilə bağlı foto şəkilləri, sənədləri, bu və ya digər eksponatları muzeyə bağışlamışdır. Muzey

ekspozisiyasında Məmmədcəfər Cəfərov, Abbas Zamanov, Mehdi Məmmədov, Yaşar Qarayev, Rafael Hüseynov, Səlahəddin Xəlilov, İsa Həbibbəyli, Yavuz Axundlu, Əjdər İsmayılov, Kamran Əliyev, Cəlal Qasımov, Ənvər Uzun, (T.C), Hüseyn İbrahimov, Zahid Əkbərov, Təmilla Təhmasib, Zümrüd Yağmur, Azər Turan, Hüseyn Həşimli, Cəlil Vəzirovun muzeyə bağışladıqları onlarca kitablar və müxtəlif yazılar, şair haqqında xatirələr muzey ekspozisiyasında layiqli yer tutur.

***Ev-muzey Cavid sənəti pərəstişkarlarının bir növ yaradıcılıq və tədqiqat mərkəzinə çevrilmişdir. Rəy kitabındakı qeydlərin, yazılan arzuların coğrafiyası dediklərimizə əyani sübut ola bilər. Burada Türkiyədən, İran İslam Respublikasından, Uzaq Şərqdən, Moskvadan, Pribaltika ölkələrindən, Orta Asiyadan, Gürcüstandan, Moldoviyadan, Birləşmiş Ərəb Əmirliklərindən, Hindistandan, Yaponiyadan, Koreyadan, Amerika Birləşmiş Ştatlarından, Almaniyadan, Fransadan gələnlərin yüzlərlə qeydləri var.***

Muzey əməkdaşları Cavid sənətinin, onun həyat və yaradıcılığının tədqiqat işini həmişə ön planda saxlayırlar. Cavid əsərlərinin səhnə və nəşr tarixlərini əks etdirən kataloqlar tərtib edilmişdir. İndi bu kataloqlar üzrə yaradıcılıq işləri davam etdirilir.

Yarandığı gündən indiyədək «H.Cavid və teatr», «H.Cavid və Naxçıvan teatrı», «H.Cavid-100», «H.Cavid-110», «H.Cavid-120», «H.Cavidin dramaturgiyası», «Naxçıvan MR-80» adlı səyyar sərgilər yaradılmış və Muxtar Respublikanın mədəni-maarif müəssisələrində nümayiş etdirilmişdir. «H.Cavid və teatr» adlı sərgi Belorusiyanın Minsk şəhərində nümayiş etdirilmiş və mükafata layiq görülmüşdür. 2007-ci ilin may ayının 7-dən 12-dək Türkiyənin İstanbul şəhərindəki, «Yeddi təpə» Universitetində və Cavidin təhsil aldığı «İstanbul» Universitetində H.Cavidin 125 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə, görüşlərdə «H.Cavid - 125» adlı sərgi nümayiş etdirilmiş, tədbirdə iştirak edən müəllim və tələbələrə Cavidin həyat və yaradıcılığı haqqında ətraflı məlumatlar verilmişdir.

Disputlar, gecələr və poeziya saatları ev-muzeyinin fəaliyyətində başlıca xətt təşkil edir. Muzey H.Cavid tədqiqatçıları, Cavidşünaslarla görüşlərə də yüksək qiymət verir.

Muzey fəaliyyətə başlayandan bəri orta məktəblərdə H.Cavidin həyat və fəaliyyətinin tədrisi üçün ayrılmış saatlardan birini məhz muzeyin divarları arasında, buranın eksponatları ilə əyani təmasda olaraq keçmək təşəbbüsünə əl atılmış və bu iş öz müsbət nəticəsini vermişdir. Bir neçə orta məktəbin ədəbiyyat müəllimlərinin təşəbbüsü ilə keçirilən belə «açıq dərslər» artıq çoxlarının diqqətini cəlb etmişdir. Belə «açıq dərslər» üçün muzeyin əməkdaşları əlavə tədbirlər işləmişlər. Bu tədbirlərdən biri və ən vaciblisi «Cavid poeziya klubu»nun təşkilidir. Klub respublikanın müxtəlif teatrlarının yaradıcı heyətləri ilə, Cavidşünas alimlərlə, şair və yazıçılarla görüşlər və disputlar keçirmişdir. Gələcəkdə də bu faydalı işi davam etdirmək əzmindəyik.

Cavid ev-muzeyi yarandığı gündən daim başqa muzeylərlə əlaqələr yaratmış və əlaqələrin möhkəmlənməsinə çalışmışdır. Bütün tədbir və görüşlərimizdə Cavid sənətinin, dünyaya nikbin Cavid baxışının ruhu duyulur.

***Muzeyin rəy kitabında xalq yazıçısı Anarın belə bir qeydi var: «Böyük yazıçımız Hüseyn Cavidin ev-muzeyini dərin həyəcanla seyr etdik. Cavidin adıyla, sənətiylə, taleyiylə bağlı hər bir sənəd, hər bir şəkil, foto bizim üçün son dərəcə qiymətli və əzizdir. Cavidin vətənə qaytarılması ilə bağlı sənədlər, şəkillər, əşyalar dərin təsir bağışlayır. Bu gözəl muzeyin yaradıcılarına, təşkilatçılarına böyük minnətdarlıq hissini bildirirəm».***

Rəy kitabında olan aşağıdakı sözlərlə bütün Cavidsevərlərə, xalqımıza müraciət edərək sözümü tamamlamaq istərdim: «Böyük şairimiz H.Cavidin ev-muzeyini ziyarət etmək hər bir azərbaycanlı üçün şərəfdir..."

**Bəhruz AXUNDOV,**
**H.Cavidin Naxçıvandakı**
**ev-muzeyinin direktoru,**
**Naxçıvan Muxtar Respublikasının**
**Əməkdar Mədəniyyət işçisi**